iyirminci illərin sonlarından başlayaraq SSRİ-də ittifaqı yaradan xalqların möhtəşəm keçmişlərini göstərmək üçün aparılan cəhdləri, müttəfiq ölkələrdə uydurulan qəhrəmanları xatırlayaq. Numunəni bir az da dərinləşdirə bilərik. Ötən əsrin otuzuncu illərdən başlayaraq Azərbaycanda Babəkin yenidən canlandırılması prosesi başladı, onunla bağlı tarixi araşdırmalar, bədii əsərlər yazıldı. Otuzuncu illərə qədər İslamın düşməni hesab olunan Babək, artıq yeni bir sima qazandı, o, sosial bərabərlik arzulayan, onu quran qəhrəmana çevrildi, kommunistlərin sələfi oldu.

Bu cür fəaliyyətlər hər bir kütlə hərəkatının öz qədimliyini sübut etmək istəyindən doğur. Saatları Ayarlama İnstitutunun da belə bir tarixi keçmişə ehtiyacı var. Halit Ayarcı lazımi tarixi şəxsiyyəti tapır. Bu, Əhməd Zamani əfəndidir. Bələdiyyə rəsmisi ilə görüş zamanı anidən Halit Ayarcının beyninə gələn fikirlə yaranan bu tarixi şəxsiyyət haqqında kitab yazılır. Tezliklə Əhməd Zamani əfəndiyə olan marağı nəzərə alaraq onun qəbrini də tapıb üzə çıxarırlar. Əlbəttə, nə tarixdə Əhməd Zamani əfəndi adlı şəxs olub, nə də qəbir onundur. Üstəlik mətbuatda Halit Ayarcı və Hayri İrdalın tarixi saxtalaşdırmaqları barədə yazılar da çıxır və bu yazılar əks effekt verərək instituta marağı artırır.

Erix Hoffer "Əsl inamlı" əsərində kütlə hərəkatına qoşulanları analiz edərək, onların ən çox orta təbəqədən çıxdıqlarını deyir. Yoxsul insanlar, kölələr heç zaman üsyan etməzlər. XIX əsrdə Rusiyada dekabrist, Petraşeviç hərəkatlarının üzvləri də əsasən oxumuş orta təbəqənin nümayəndələri idilər. Hitlerin tərəfdarları içində macəra axtaran, boş həyatlarından bezmiş və artıq sevginin ləzzətini duya bilməyən yüksək cəmiyyət qadınları çoxluq təşkil edirdi. Eyni şeyi Fransa Burjua İnqilabı zamanı aktivlik göstərmiş fransız yüksək cəmiyyət qadınları barədə də demək olar. Saatları Ayarlama İnstitutunda da bu cür qadınlar az deyil. Özü də onların çoxunu biz hələ Spiritizm cəmiyyətindən tanıyırıq. Bu cür xəyal qırıqlığı içində dolaşan, sürəkli nələrdənsə narazı olan insanlar hər bir yeni kütlə hərəkatlarının ilk tərəfdarları arasında yer alırlar. Hayri bəy Spritizm cəmiyyətindən tanıdığı qadınları instituta dəvət etdikdə onlar buna sevinirlər. Hayrinin bibisi Zərifə xanım, məşuqəsi Selma xanım, Sabriyə xanım, Nevzat xanım da belələrindəndirlər. Həyat yoldaşı Pakizə və baldızları isə tipik xəyalpərəstlərdirlər (Pakizə Hollivud filmlərinə baxandan sonra özünü o aktrisalara bənzədir, Hayrinin böyük baldızı bərbad səsinə rəğmən müğənni olmaq istəyir, olur da), kütlə hərəkatında isə belələrinə hər zaman əşhədü-ehtiyac yaranır.



Zərifə xanım bu yeni hərəkat-institutu o qədər bəyənir ki, qardaşı oğlu ilə münasibətlərinin soyuq olmasına baxmayaraq, bu təşkilata üzv olur, yeni təsis olunan Saatları Sevənlər Cəmiyyətinə rəhbər təyin edilir. Zərifə xanım da öz növbəsində institut binasının tikilməsi üçün torpaq sahəsi hədiyyə edir.

Hər bir kütlə hərəkatında olduğu kimi, Saatları Ayarlama İnstitutunun özünün də müqəddəs bildiyi əşyası - mübarəki var. Mübarək ayaqlı, qədim saatdır. Əsərdə onun haqqında canlı obraz kimi bəhs olunur, təşkil olunan ziyafətlərin ən ümdə "qonağıdır", onunla ilgilənirlər, diqqət göstərirlər. Hətta institutun binasının quruluşu da mübarəkə bənzəyir.

Halit Ayarcı Linkoln, Qandi, Çörçil kimi həm nəzəriyyəçi, həm də fəaliyyət adamıdır. O, Hayridən fərqli olaraq etdiklərinə inanır. Buna görə institutun üzvləri bir gün onun sözünü dinləməyəndə xəyal qırıqlığına uğrayır. Əli işdən soyuyur. Oxşar hadisə istənilən kütlə hərəkatı ilə baş verir.

1927-ci ildə Trotskinin Kommunist Partiyasından çıxarılaraq ən sıravi kommunistdən belə əhəmiyyətsiz birinə çevrilməsi artıq partiyanın möhkəmlənməsindən xəbər verirdi. Kommunist partiyası bundan sonra dünyada kommunizm qurmaq kimi "böyük ümidlər"dən (Diqqətli oxucu yəqin romanda bu adda fəslin yer aldığını görməmiş deyil) bəhs etməyəcək, onun hədəfləri praktik və lokal olacaqdı. Və əgər bir kütlə hərəkatı artıq böyük ümidlərindən imtina edib indiki zamana fokuslanırsa, deməli o özünün inkişaf fazasını tamamlamışdır.

Halit Ayarcı işçilər üçün tikiləcək kooperativ evlərinin formasının saat şəklində olacağını dedikdə ilk dəfə olaraq müxalif fikirlərlə qarşılaşır. İnstitutun içindən olan bu insanlar artıq yenilik istəmirlər, onlara əllərində olanlar kifayətdir. Buna görə də şiddətlə etiraz edirlər. Elə bu zaman xəyal qırıqlığına uğrayan Halit Ayarcı institutun işinin yekunlaşdığını anlayır. O deyir: "Bu müəssisə artıq mənim deyil! Bundan sonra mən də hər kəs kimiyəm burda!" Təsadüfi deyil ki, Halit Ayarcının bu qərarı ilə eyni vaxtda Saat Sevənlər Cəmiyyətinin qurulması təklifinə yox deyən ölkələrin cavabları da gəlib çıxır: "Sənaye həyatı kafi dərəcədə inkişaf etdiyi üçün belə bir müəssisəyə ehtiyacımız yoxdur."

Belə çıxır ki, saat həm də inkişafın simvoludur. Sənayesi inkişaf etmiş modern toplumlarda saat yalnız iş fəaliyyətinin yaxşılaşmasına xidmət edən alətdir, sənayenin inkişaf etmədiyi, modernizmin gəlmədiyi ölkələrdə isə sitayiş obyekti, sakral varlıqdır. Buna görə onun adına institut açmaq zərurəti doğulur.

Erik Hoffer deyir ki, xalqına və insanlığa yararlı olan kütlə hərəkatı liderləri təkcə kütlə hərəkatının necə başladılacağını deyil, Qandi kimi onun aktiv dövrünün nə zaman bitirəcəklərini də bilirlər. Halit Ayarcı da Saatları Ayarlama İnstitutunun aktiv dövrünün bitdiyini anlayır (çünki sənayeləşmə başlayıb!) və könüllü surətdə ondan uzaqlaşır.

Gəlin biz də Qandi kimi, Halit Ayarcı kimi davranaraq yazımızın həcmi çox da böyüməmiş burdaca dayanaq.